# AİB-in fəaliyyətinə qısa nəzər

2019

Avropa İnvestisiya Bankı Avropa
İttifaqının kredit qurumudur.

Biz dünyanın ən iri çoxtərəfli kreditoru və iqlim dəyişmələri ilə mübarizə tədbirlərinin ən böyük maliyyə təminatçısıyıq.

Biz iqtisadi inkişafa dəstək göstərir, yeni iş yerləri yaradır və bərabərliyi təşviq edirik.

AİB Qrupuna Avropa İnvestisiya Bankı və Avropa İnvestisiya Fondu (AİF) daxildir. AİF kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi üzrə ixtisaslaşıb.

Dünyanın inkişaf sahəsində fəaliyyət göstərən ən uğurlu təşkilatlarından biri ilə tanış olmaq üçün növbəti səhifələrə nəzər salın.



*Bankın maliyyə dəstəyi 2018-ci ildə 290 milyon sərnişin üçün nəqliyyatı yaxşılaşdırıb.*

| | |
|---|---|
| €230 000 000 000 | AİB-in dəstəyi ilə həyata keçirilən investisiya |
| €64 190 000 000 | AİB Qrupu tərəfindən maliyyələşdirmə[1] |
| €60 000 000 000 | Qlobal istiqraz bazarlarında cəlb edilmiş kapital |
| €23 270 000 000 | Kiçik sahibkarlığa yönələn maliyyələşdirmə |
| €13 520 000 000 | İnnovasiyaların stimullaşdırılmasına yönələn maliyyələşdirmə |
| 5 000 000 | Kiçik ölçülü şirkətlərdə qorunub saxlanılmış iş yerləri |
| 854 | layihə imzalanıb |
| 29% | AİB-in təmin etdiyi maliyyələşdirmənin iqlim dəyişmələri ilə mübarizə sahəsində fəaliyyətlərin dəstəklənməsinə yönəldilmiş hissəsi |

[1] 2018-ci ildə təmin etdiyimiz 64.19 milyard dəyərində maliyyələşdirmə təqribən 230 milyard avro dəyərində investisiyanın reallaşmasına kömək edib. Belə ki, AİB bir qayda olaraq, layihə dəyərinin 50%-dən çoxunu maliyyələşdirmədiyi üçün, bizim iştirakımız digər təşkilatları layihələri maliyyələşdirməyə stimullaşdırır.



*Bank 2018-ci ildə ətraf mühitin mühafizəsi üçün 15.15 milyard avro dəyərində maliyyələşdirmə təmin edib*

# Prioritetlərimiz

Avropa İnvestisiya Bankı əsas diqqətini dörd sahəyə yönəldir: innovasiya, kiçik sahibkarlıq, iqlim və infrastruktur.

Bizim iqtisadçılarımızın, mühəndislərimizin, maliyyə analitiklərimizin və iqlim üzrə mütəxəssislərimizin ümumi səriştəsi layihələrimizin uğuruna təminat verir. Hər hansı layihənin bizim mütəxəssislər tərəfindən təsdiqlənməsi öz növbəsində, özəl sektordan daha çox investisiyanın cəlb edilməsinə təkan verir. Biz insanların həyatını yaxşılaşdırmaq üçün dünyanın hər yerində fəaliyyət göstəririk. 2018-ci ildə biz 20 milyon insan üçün içməli suyun təhlükəsizliyini artırdıq, milyonlarla sürücü üçün daha keyfiyyətli yollar inşa etdik və 34 milyondan çox ailəni elektrik enerjisi ilə təchiz etdik.



*AİB-in dəstəyilə, Nikosiada yerləşən Kipr Nevrologiya və Genetika İnstitutu özünün elmi-tədqiqat və müalicə qurğularını müasirləşdirdi*

Bizim təmin etdiyimiz maliyyələşmə və məsləhət xidməti milyonlarla iş yerlərinin qorunub saxlanılmasına dəstək göstərir və minlərlə kiçik ölçülü şirkətin inkişafına kömək edir. 2018-ci ildə biz 374 000 kiçik ölçülü şirkətin maliyyələşdirilməsini təmin etdik. Biz qabaqcıl innovasiyalara və iqlim dəyişmələri ilə mübarizə tədbirlərinə dəstək göstərməklə, Avropanın rəqabətliliyini artırırıq. 2018-ci ildə 29 milyon yüksək sürətli rəqəmsal qoşulma bizim dəstəyimiz sayəsində baş tutub.

Bizim istifadə etdiyimiz alətlərdən biri Avropa Strateji İnvestisiyalar Fondudur (ASİF). Bu alətin məqsədi 2020-ci ilədək 500 milyard avro dəyərində investisiya cəlb etməklə Avropadakı böyük maliyyə kəsirini azaltmaqdır. 2018-ci ilin sonuna qədər AİB Qrupu ASİF çərçivəsində 70.4 milyard avro dəyərində layihələrin maliyyələşdirilməsini təsdiq etmiş və 375.5 milyard avro dəyərində investisiya cəlb etmişdir.



*Seneqalda avtobus zavodunda çalışan qaynaqçı. AİB bu şirkətin inkişafına kömək edən bir fonda investisiya edib.*

# Müştərilərimiz

Biz həm dövlət, həm də özəl sektora kreditlər veririk. Yerli banklar vasitəsilə kiçik ölçülü şirkətlərə dəstək göstərir və innovativ startaplara kreditlər veririk. Orta ölçülü şirkətlər elmi-tədqiqat və inkişaf sahəsinə investisiyalar üçün birbaşa dəstək ala bilərlər. Biz layihə dəyərinin yarıdan çoxunu maliyyələşdirmirik, çünki ayırdığımız kreditlərin özəl investorlardan və digər dövlət maliyyə institutlarından maliyyə axınına təkan verməsini istəyirik.

AİB əlverişli şərtlərlə geniş spektrli maliyyə məhsulları təklif edir. Biz Avropada innovasiyaları və peşəkar bacarıqların inkişafını dəstəkləyən müəyyən layihələrlə bağlı, kommersiya bankları ilə müqayisədə öz üzərimizə daha çox risk götürürük. Biz, həmçinin, layihələrin hazırlanması və icrasına texniki yardım da göstəririk.



*Bank Paris kimi şəhərlərin bərpa olunan enerjidən istifadə etməsinə, mobilliyini yaxşılaşdırmasına, yol və körpüləri təkmilləşdirməsinə kömək edir.*

# Resurslarımız

AİB maliyyə baxımından müstəqil bir qurumdur. Biz beynəlxalq kapital bazarlarına istiqrazlar buraxmaqla maliyyə vəsaitləri əldə edirik.

Yüksək kredit reytinqimiz əlverişli şərtlərlə kapital cəlb etməyimizdən xəbər verir. Biz əldə etdiyimiz bu qazancları müştərilərimizlə bölüşürük.

Biz qlobal bazarlarda ətraf mühitə ən həssas yanaşan çoxtərəfli banklardan biriyik. “Yaşıl istiqraz” bazarını məhz bizim bankirlərimiz yaradıb.

# Öhdəliklərimiz

- bütün fəaliyyətlərimizdə yüksək ekoloji və sosial standartlar
- güclü idarəçilik, şəffaflıq və hesabatlılıq
- ətraf mühitə minimum təsir

Təkliflərimiz barədə daha ətraflı
məlumat üçün **www.eib.org/products**
keçidinə daxil ola bilərsiniz.

European Investment Bank *The EU bank*

EUROPEAN INVESTMENT FUND

**Avropa İnvestisiya Bankı**
info@eib.org
**www.eib.org**

© EIB 2019

print: QH-02-19-008-AZ-C ISBN 978-92-861-4343-4 doi:10.2867/532338
pdf: QH-02-19-008-AZ-N ISBN 978-92-861-4344-1 doi:10.2867/913532